**M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası**
**və Polşa Respublikasının Milli Kitabxanası**
**arasında əməkdaşlıq haqqında**
**Memorandum**

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası və Polşa Respublikasının Milli Kitabxanası (sonradan "Tərəflər" adlandırılacaq):

Kitabxanalar arasında peşəkar əməkdaşlığı inkişaf etdirmək, həmçinin elm və mədəniyyət sahələrində, informasiya mübadiləsi sahəsində əməkdaşlıq üçün şərait yaratmağı arzulayaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin, elmi biblioqrafiyanın elektron mübadiləsi və çatdırılması, nadir kitabların bərpa və konservasiyası, kadr hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

## Maddə 2

Tərəflər kitabxana elminin, kitabxana-informasiya sahəsinin inkişaf perspektivləri, nailiyyətləri barədə qarşılıqlı təcrübə və bilik əldə etmək məqsədilə aşağıdakı sahələr üzrə əlaqələri inkişaf etdirəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;
- elektron informasiya mübadiləsi;
- kitab və kitab nəşri sahəsində elmi tədqiqatlar;
- nadir kitabların mühafizə, bərpa və konservasiyası texnologiyaları;
- kitabxana arxivlərinin keyfiyyətli təkmilləşdirilməsi məqsədilə beynəlxalq kitab mübadiləsinin inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana elminin bütün sahələrində mütəxəssislərin təcrübə mübadiləsi aparılması üçün treninqlərin, vörkşopların, seminarlar və elmi konfransların keçirilməsi.

**Maddə 3**

Tərəflər digər tərəfin kitabxanaçısını maksimum 15 günlük müddət olmaq şərtilə qəbul etməyə razıdır.

Mütəxəssislərin qarşılıqlı mübadiləsi Maddə 2-də qeyd olunub və Maddə 3 aşağıdakı şərtlər altında olacaqdır:

- mütəxəssisin səyahət və gündəlik xərclərini göndərən Tərəf ödəyəcək.
- hər bir mütəxəssis üçün yaşayış yerini qəbul edən Tərəf təmin edəcək.

**Maddə 4**

Əməkdaşlıq haqqında Memorandum 3 il müddətinə etibarlı olacaq və bu Memorandumun bitməsinə 6 ay qalmış digər Tərəfin Memorandumun bitməsi barədə yazılı məlumatı olmazsa, Əməkdaşlıq haqqında Memorandum növbəti 3 il müddətinə uzadılacaqdır.

**Maddə 5**

Əməkdaşlıq haqqında Memoranduma əlavə və dəyişikliklərin edilməsi zərurəti yarandığı halda Tərəflər bir-birini qabaqcadan yazılı şəkildə məlumatlandırmalıdırlar.

**Maddə 6**

Əməkdaşlıq haqqında Memorandum imzalandığı andan etibarən qüvvəyə minir.

Əməkdaşlıq haqqında Memorandum Varşava şəhərində 25 aprel 2013-cü il tarixdə Azərbaycan, polyak və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər səlahiyyətlidir. Hazırki Memorandumun tərcüməsi ilə problem olarsa, ingilis variantına üstünlük veriləcək.

| | |
|---|---|
| **M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru** | **Polşa Milli Kitabxanasının Baş direktoru** |
| **Dr. Kərim Tahirov** | **Dr. Tomasz Makovski** |

BIBLIOTEKA NARODOWA
Al. Niepodległości 213
02-086 Warszawa
(7)